BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1* *Humanitar elmlər seriyası* *2014*

UOT 94 "19/..."

# MƏHƏMMƏD MÜSƏDDİQİN İKİNCİ HÖKUMƏTİ DÖVRÜNDƏ İRANIN DAXİLİ VƏ XARİCİ SİYASİ KURSUNDA BAŞ VERƏN DƏYİŞİKLİKLƏR

**N.A.RZAYEV**
***Bakı Dövlət Universiteti***
***rz.nasimi@yahoo.com***

*1949-cu ildə Milli Cəbhə təşkilatını yaradan Məhəmməd Müsəddiq İran neftinin milliləşdirilməsi uğrunda sistemli mübarizəyə başladı. Onun bu mübarizəsi çox keçmədən öz bəhrəsini verdi. Belə ki, 1951-ci ildə İranın baş naziri vəzifəsinə gətirildi. Qısa müddətdə özünə xeyli sayda tərəfdar toplayan Müsəddiqin böyük nüfuzu 1952-ci ildə yenidən bu vəzifəyə təyin olunması üçün imkan yaratmışdı. Lakin Məhəmməd Rza şahla arasında baş verən narazılıq səbəbindən 1952-ci ildə istefası İran xalqını ayağa qalxmağa vadar etdi. Xalqın istəkləri və təzyiqi ilə Müsəddiqin yenidən hakimiyyətə qaytarılması İran tarixində ciddi hadisələrin cərəyan etməsi ilə müşayiət olundu.*

**Açar sözlər:** milliləşdirmə, İngiltərə-İran neft şirkəti, Zahidi, Rza şah, Henderson, Müsəddiq

1951-ci ildə Milli Cəbhə təşkilatının rəhbəri Məhəmməd Müsəddiq İranın baş naziri vəzifəsinə gətirildikdən sonra, İran neftini milliləşdirməklə ölkəsinin tarixində önəmli bir səhifə açdı. Qətiyyətli mövqeyi ilə istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə qazandığı nüfuza görə 1952-ci il iyul ayının 6-da İran məclisi 65 deputatdan 52-i lehinə, 10 nəfəri bitərəf, 3 nəfəri əleyhinə olmaqla Müsəddiqi daha iki il müddətinə Baş nazir vəzifəsində saxladı. Hökumət kabinetinin siyahısını şaha təqdim etmək üçün saraya gəldikdə Müsəddiq, o vaxta qədər heç bir hökumət başçısının cəsarət etmədiyi bir məsələni müzakirə etdi. O, şahdan Müdafiə Nazirliyinin İdarəsinin hökumətə həvalə olunmasını istədikdə şah onun bu istəyinə qarşı olduqca sərt reaksiya verdi. Belə olan təqdirdə, Müsəddiq bu istəyinin rədd edilməsi halında istefa verəcəyini bildirdi və iyul ayının 17-də öz istefa ərizəsini şaha təqdim etdi [15, 40].

Bu zaman Britaniya rəsmiləri onun yerinə oturdulacaq şəxsi çoxdan müəyyənləşdirmişdilər. İyul ayının 17-də Hüseyn Əlanın Müsəddiqin istefasını məclisə təqdim etməsindən sonra 42 deputatın iştirakı ilə keçirilən məclisin qapalı iclasında Qəvam əs Səltənə İranın Baş naziri vəzifəsinə namizəd olaraq

irəli sürüldü. Güclü Baş nazir məsələsində Müsəddiqlə olan münasibətlərdən gözü qorxan şah Qəvamın hakimiyyətə gətirilməsində həvəsli deyildi. Qəvamın Hendersonla görüşdüyünü biləndə şah Seyid-Ziyaya demişdi: "Belə başa düşürəm ki, o, ağılsız axmaq, amerikalılar tərəfindən idarə olunur" [10]. Qəvama qarşı qəti əks mövqedə dayanan şəxslərdən biri də Ayətullah Əbülqasım Kaşani idi. Qəvam Kaşanini susdurmaq üçün ona kabinetinin altı nazirini seçməyi təklif etmişdi. Yeni Baş nazirə qarşı böyük nifrət hissi bəsləyən Kaşani tərəfdarlarını ona qarşı qalxmağa çağırdı. İyul ayının 19-da İranda Müsəddiqə dəstək üçün kütləvi nümayişlər keçirildi. Qəvam əleyhinə küçələrə çıxan kütlələri dağıtmaq üçün göndərilən polis qüvvələri əksər hallarda etirazçılara dəstək verirdilər. Abadan və Tehranda polisin bütün qüvvəsi ilə etirazçıları dağıtmaq cəhdləri heç bir nəticə vermədi. İranın küçələrində nümayişlər idarəolunmaz şəkil almışdı. Ölkə tamamilə xaos içərisində idi. Nümayişçilərin tələbi Müsəddiqin hakimiyyətə qaytarılmasından ibarət idi. Vəziyyətin bu qədər kəskinləşməsi şahı və Qəvamı çaşdırmışdı. Qəvam şahın razılığı ilə seçmə qoşun hissələrinə vəziyyətə müdaxilə etmək əmri verdi. Tehranın müxtəlif yerlərində xalq kütlələrinə qarşı atəş açıldı. Küçə çıxışları ilə bərabər tətil hərəkatının da başlanması qısa müddətdə ölkəni iflic etmişdi. Çoxlu sayda insanın ölməsinə baxmayaraq çıxışların intensivliyi artan xətt üzrə davam edirdi. Çarəsiz qalan Qəvam əs Səltənə iyul ayının 21-də saat 17-də öz istefa ərizəsini şaha təqdim etdi və onun istefası etirazsız qəbul olundu. Hakimiyyətinin ilk günlərindən sərt və iddialı çıxışları ilə Müsəddiqi ittiham edən Qəvamın hakimiyyəti cəmi 4 gün sürdü.

Geniş xalq kütlələrinin təzyiqləri qarşısında davam gətirməyən Qəvam əs Səltənə vəzifəsindən istefa verərək İrandan qaçdı. Nə Məhəmməd Rza şah, nə də müxalif olan digər qüvvələr 1952-ci il iyul ayının 21-də Müsəddiqin yenidən hökumət başına gətirilməsinə mane ola bilmədilər. Müsəddiqin yenidən hakimiyyətə qaytarılması ilə İran tarixində önəmli bir mərhələnin əsası qoyuldu. Baş verən son hadisələr ölkənin sosial-siyasi həyatına ciddi təsir etmişdi. Orduda ruh düşkünlüyü müşahidə olunurdu. Müsəddiq ordunu siyasətdən kənarlaşdırmaq üçün bir sıra "təmizləmə" işlərinə başladı [9, 434, 435]. Milli Cəbhə təşkilatının rəhbərləri arasında baş qaldıran narazılıqlar kəskinləşməkdəydi. Müsəddiqin silahdaşlarından Ayətullah Əbülqasım Kaşani, Müzəffər Bəqai, Əbülhəsən Xeyrizadə və Hüseyn Məkkinin Müsəddiqlə aralarındakı fikir ayrılıqları getdikcə dərinləşirdi. İstefada olan hərbiçilər və bir sıra siyasi xadimlər Müsəddiq əleyhinə keçmiş daxili işlər naziri general Fəzlullah Zahidi ilə yaxınlaşmağa başlamışdılar. ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) hesab edirdi ki, əgər Müsəddiq bu mübarizədə qalib gələrsə ölkədə öz təsir gücünü ikiqat artıracaqdı [11, 4]. Son hadisələr amerikalıların təxmin etdiyi kimi şahın Müsəddiqlə mübarizədə son dərəcə zəif olduğunu sübut etdi. Dörd günlük hay-küydən sonra Müsəddiq polisin, Tehrandakı ordu hissələrinin və radionun nəzarətini tamamilə öz əlinə ala bildi. Şahı dəstəkləyən və Müsəddiq əleyhinə olan 65 zabit istefaya göndərildi. Xalqın tələbi ilə Müsəddiqin

yenidən hakimiyyət başına qaytarılması şah sülaləsini təşvişə salmışdı. Misir şahı Hüseyn Faruxun devrilməsi İran monarxının həyəcanını daha da artırmışdı. İyul ayının 24-də Müsəddiqlə görüşən Məhəmməd Rza şah taxtdan əl çəkərək ölkəni tərk etmək istədiyini bildirdikdə, Baş nazir ondan bu fikrindən daşınmasını istəmişdi. O bildirmişdi ki, şahın bu addımı İran üçün arzuolunmaz nəticələr törədə bilər. Müsəddiqin fikrincə, İran Xalq partiyası ilə mübarizə aparmaq üçün təkcə hökumətin gücü kifayət deyildi. Buna görə də, şah sülaləsinin dəstəyinə ehtiyac var idi [14].

İyul ayının 31-də "İranda və Orta Şərqdə Britaniya bankı"nın bağlanması Tehranda rəsmi surətdə elan olundu. Avqust ayının 2-də İran senatorlarının iclasında Britaniyanın İranla bağlı siyasəti tənqid edilərək, ABŞ-ın həm mülki, həm də hərbi müşavirlərinin İrandan çıxarılması hökumətdən tələb edildi. Son hadisələrdən sonra Müsəddiqin ABŞ-a münasibəti xeyli pisləşmişdi. ABŞ hökumətinin Qəvamı dəstəkləməsi onu hiddətləndirmişdi. 1952-ci il iyul ayının 27-də səfir Hendersonla görüşü zamanı Müsəddiq narazılığını açıq şəkildə bildirmişdi. Henderson Qəvama olan münasibətinin arxasında sadəcə dostluq əlaqələrinin inkişaf etdirilməsi məqsədinin dayandığını iddia etsə də, Müsəddiq buna inanmamışdı. Çünki Baş nazir Hendersonun Qəvamla Türkiyə səfirliyində və Qəvamla Hendersonun ortaq dostlarından birinin evində görüşdüyündən xəbərdar idi. ABŞ-ın İran siyasətini özünəməxsus yollarla tənqid edən Müsəddiq demişdi: "İran heç vaxt Birləşmiş Krallığı və Birləşmiş Ştatları istəməyəcək. Belə davam etsəniz, İran Birləşmiş Krallıq və Birləşmiş Ştatlar arasında əziyyət çəkməkdənsə kommunizmə getməyi üstün tutacaq" [7, 417]. Müsəddiqin Qərbə münasibətində baş verən bu dəyişiklik rəsmi Vaşinqtonun narahatlığını xeyli artırmışdı. Buna görə də, dövlət katibi Din Açeson prezident Trumenlə İran məsələsini müzakirə edərək təcili İrana 10 milyon dollar yardım edilməsini təklif etmişdi. Onun fikrincə, Britaniyanın mövqeyini yumşaltmaq üçün təzyiqlər artırılmalı idi. Dövlət katibi Tehrandakı səfirliyə məktub ünvanlayaraq, ABŞ hökumətinin qərarını bildirmişdi. Qərara görə İrana tezliklə 10 milyon dollar yardım göndərilməklə bərabər, Britaniya hökuməti İran neftini almaq üçün razı salınmalı idi. Bunu ABŞ-ın İrana münasibətində səhvlərini düzəltmək üçün etdiyi son cəhdlər kimi də başa düşmək olardı. Başlıca tədbir olaraq, Britaniyanın danışıqları davam etdirməsi vacib idi. Əgər Britaniya İran neftini almaqdan boyun qaçırsaydı, onda Sovet bloku ölkələrindən hər hansı birinin nefti alması labüd idi. ABŞ-ın İrandakı səfiri Henderson Müsəddiqi dəstəkləməklə Fars körfəzində kommunizmin yayılmasının qarşısını almaq üçün sədd yaratmağın mümkünlüyünə inanırdı. Lakin, Britaniyanın ABŞ-dakı səfiri Müsəddiqi Hendersonun düşündüyü qədər güclü hesab etmirdi. Tudə partiyasının İranda fəallaşması, İran iqtisadiyyatının acınacaqlı durumda olması və vaxtilə Müsəddiqi dəstəkləyən silahdaşlarının bir qisminin ondan üz döndərməsi, səfiri belə düşünməyə vadar edirdi [8, 434, 435] Britaniya hökuməti ABŞ-ın irəli sürdüyü təklifləri qəbul etmək fikrində deyildi. Ümumiyyətlə, bu tədbirlərin müsbət nəticələr verəcəyinə qətiyyən inanmırdı. Müsəddiq

hökumətinin Qəvamdan əvvəl və sonra Qərbə olan münasibətində kəskin fərqlər var idi. Bunu ABŞ və Britaniya rəsmiləri də etiraf edirdilər. Müsəddiq "Şəhərlər xidmət korporasiyası"nın prezidenti Alon Conesi İran neft sənayesinin idarə olunması ilə bağlı məsləhətləşməyə dəvət etdikdə, Cones bu barədə Trumenə bildirmişdi. Prezident görüşmələrin başlanmasına müsbət rəy verdikdə, Britaniya hökuməti bunu sərt qarşıladı. Hətta Britaniya tərəfi ABŞ hökumətini Fars körfəzi neftinə yiyələnmək niyyətində olmaqda ittiham etdi. Çörçil ABŞ hökumətinin bu addımına etiraz olaraq yazırdı: "Biz Koreyada sizə əlimizdən gələn köməyi göstərdik. Heç bir ölkənin könüllü olaraq etmədiyi riski biz etdik. Sovet Rusiyasına qarşı "atom müharibəsi"nə qoşulduq. Mən ümid edirəm ki, Amerikanın Müsəddiqə hökumət tərəfindən və ya kommersiya xarakterli yardım etməsinə mane olacaqsınız" [6, 446]. Trumen Çörçilə cavab olaraq ABŞ-ın bu çətin vəziyyətdən öz maraqlarına uyğun olaraq yararlanmaq niyyətinin olmadığını bildirərək, Conesin səfərinin Britaniyanın mövqeyinə ziyan vurmayacağını yazmışdı. Həmin cavab məktubunda Trumen Çörçili İranın milliləşdirmə qanunu ilə razılaşmağa çağırırdı. Prezidentin fikrincə, əgər Çörçil inadında davam edərdisə, yaranmış vəziyyət İranı "kommunist bataqlığına sürükləyib, azad dünya üçün təhlükə yaradacaqdı." Çörçil ABŞ hökumət başçısına İran hökumətinə birlikdə gizli və şəxsi teleqram göndərməyi təklif etmişdi. Dostcasına bir dildə yazılmış təkliflər, əslində, Britaniyanın köhnə təkliflərindən o qədər də fərqlənmirdi. Bu təkliflər planı Müsəddiqə prezident Trumenin və Çörçilin şəxsi müraciətləri şəklində təqdim olundu. Avqust ayının 30-da Müsəddiqə çatdırılan həmin plana görə keçmiş İİNŞ-nə məxsus olan və İranda 18 ay əvvəl milliləşdirilən mülkiyyətin əvəzinin ödənilməsi məsələsi Beynəlxalq Məhkəməyə verilməli, İrandan dünya bazarına neft daşınmasına yenidən başlamaq üçün tədbirlər görülməsi barəsində danışıqlar üçün İran hökuməti və keçmiş İİNŞ tərəfindən münasib nümayəndələr təyin olunmalı idi. Əgər İran hökuməti yuxarıda göstərilən tələbləri qəbul edərdisə, Trumenin və Çörçilin planına uyğun olaraq: a) keçmiş İİNŞ dərhal satmaq üçün İranın neft ehtiyatlarından 20-30 milyon dollarlıq neft ayırmalı olacaqdı; b) İrana mal ixrac edilməsi və İranın ingilis sterlinqindən istifadə etməsi üzərinə qoyulmuş məhdudiyyətləri İngiltərə aradan qaldıracaqdı; c) Birləşmiş Ştatlar büdcə probleminin həllinə kömək etmək məqsədilə İran hökumətinə dərhal 10 milyon dollar yardım edəcəkdi [3, 462, 463]. Avqust ayının 30-da ABŞ və Britaniyanın hazırladığı müştərək təkliflər planı Henderson və Midlton tərəfindən şəxsən Müsəddiqə təqdim olundu. Qərb nümayəndələri bu məktubun neft probleminin həll olunması məqsədi ilə hazırlandığını və dostluq xarakterli olduğunu təkrar-təkrar vurğuladılar. Müsəddiq məktubun 27 avqust müzakirələri ilə eyni quruluşda olduğu təqdirdə qəbul olunmayacağını bildirərək demişdi: "İran xalqı uzunqulağ deyil ki, "dostluq məqsədləri" adı altında uzun müddət aldansın". Müsəddiq məktuba qısa müddətdə cavab verəcəyini bildirdi [4, 473].

Ölkədə siyasi ziddiyyətlərin artması Müsəddiqin daxili sabitliyi qorumaq üçün göstərdiyi səyləri nəticəsiz edirdi. Ölkədə yaranmış daxili narahat şərait

qarşısında Müsəddiq tətildə olan məclis deputatlarının fövqəladə iclasa toplaşmaq üçün Tehrana gəlmələrini tələb etdi. Məclisin fövqəladə iclasının çağrılmasında neft məsələsinin nizama salınması haqqında İngiltərə-ABŞ hökumətləri tərəfindən təqdim olunan tədbirlər planının da rolu var idi. İran mətbuatı ABŞ və Britaniyanın irəli sürdüyü təkliflər planını birmənalı qarşılamadı. Ümumilikdə İranın geniş ictimaiyyəti bu təkliflərin ölkənin 10 milyon dollara satılması demək olduğu fikrində idi. ABŞ-ın Tehrandakı səfiri artıq Müsəddiqin cavabının müsbət olmayacağını təxmin edirdi. Sentyabr ayında Müsəddiqlə görüşən Türkiyənin İrandakı səfiri Baş nazirə Trumen və Çörçilin neft məsələsi ilə bağlı təkliflər planına müsbət cavab verməyi məsləhət görmüşdü. Əsasən kommunizmlə mübarizəyə həsr olunmuş bu görüş zamanı səfir bildirmişdi ki, kommunizmin ölkəyə nüfuz etməsi üçün münbit şəraiti əhalinin maddi vəziyyətinin ağır olması yarada bilər. Onun fikrincə, İran neft məsələsində razılığa gəlməklə kommunizmlə mübarizəni xeyli asanlaşdıra bilərdi [12]. ABŞ və Britaniyanın ortaq məktubuna Müsəddiqin cavabı oktyabr ayının 7-də Hendersona çatdırldı. Müsəddiqin qarşı təkliflərində göstərilirdi ki, İran Beynəlxalq Məhkəmənin vasitəçiliyinə iki şərtlə razı ola bilərdi. Birincisi, Məhkəmə qərarını ya İran qanunlarına görə, ya da eyni şərtlər altında sənayeni milliləşdirmiş hər hansı bir ölkənin qanunlarına və təcrübəsinə görə verməli idi. İkincisi, əgər Britaniya təzminat tələbi irəli sürsəydi, o zaman İran da yox olmuş gəlirləri üçün tələblərini ortaya qoyacaqdı. Bundan başqa cavab məktubunda bildirilirdi ki, əgər İngiltərə-İran neft şirkəti dollara çevriləcək 2 milyon funt sterlinqi dərhal İran hökumətinə qaytarsa, İran hökuməti neft məsələsinin nizama salınması barəsində İİNŞ-in geniş səlahiyyətli nümayəndə heyəti ilə danışıqlar aparmağa razılıq verəcək. İran hökuməti, şirkətin ona olan 29 milyon dollar funt sterlinq borcunun danışıqların sonuna kimi ödənilməsi üçün möhlət verirdi. Nəzərdə tutulmuş danışıqlar isə üç həftədən artıq davam etməməli idi [5, 486, 487]. Müsəddiqin önə sürdüyü bu şərtlər Çörçilin narazılığını xeyli artırdı. O, Trumenə məktub ünvanlayaraq mövqeyindən geri çəkilməməyi xahiş etdi. Britaniya hökuməti İran məsələsində bundan irəli gedə bilməyəcəklərini anlamışdı. Buna görə də Qəvamın süqutundan sonra Müsəddiqin hakimiyyətinə son qoymaq üçün yollar axtarmağa başlanmışdı. Milli hökumətin devrilməsi yolunda əsas təsirli güc rolunu İran ordusu oynaya bilərdi. Lakin ordunu ələ almaq bir qədər çətin görünürdü. Britaniya səfirliyinin məsləhətçisi Corc Hamfrey Midlton ordunu ələ almaqda vasitəçi olaraq general Fəzlullah Zahidini ən yaxşı namizəd hesab edirdi. Bu həmin Zahidi idi ki, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Alen Dalles onu "gökəmli adam" adlandırırdı [1, 3]. Zahidi Müsəddiqin hökumət kabinetində daxili işlər naziri olmuşdu. Şaha sadiq biri olan Zahidi, İkinci dünya müharibəsi zamanı Rza şahla birlikdə Hitlerlə əməkdaşlıq etmişdi. Rza şah müttəfiqlər tərəfindən taxtdan endirildikdən sonra Zahidini ortadan qaldırmaq üçün məşhur Britaniya gizli kəşfiyyatçısı Fitroy Maklen tərəfindən gizli şəkildə oğurlanaraq Fələstinə göndərilmiş və orada britaniyalılara məxsus nəzarət düşərgəsində saxlanılmışdı. Müharibədən

sonra İrana qayıdaraq, köhnə işinin başına gətirilmişdi. Müsəddiq əleyhinə hazırlanan planların əsas icraçı obrazlarından birinə çevrilən general Zahidi gizli şəkildə çevriliş planının həyata keçirilməsi istiqamətində bütün səylərini ortaya qoymuşdu.

Çörçil və Trumen arasında məktublaşmaların davam etdiyi bir dövrdə Britaniyanın İrandakı kəşfiyyat xidmətinin əməkdaşları daxili iğtişaşlar törətmək üçün fəallaşmışdılar. Zahidinin razılığını aldıqdan sonra xeyli cəsarətlənmiş Britaniyanın xarici işlər naziri Antoni İden irəli sürülən şərtlərin rədd edildiyi sərt bir məktubla Müsəddiqi cavablandırdı. Oktyabr ayının 14-də Müsəddiqə çatdırılan məktubda 49 milyon funt sterlinq verilməsi haqqında İran hökumətinin tələbi rədd edilmişdi. Həmçinin, Britaniya hökuməti sazişə gəlmək üçün danışıqlar aparılması təklifini qəbul etməmişdi [2, 496, 497]. Belə gərgin bir şəraitdə SSRİ xarici işlər naziri V.M. Molotov Tehrandakı sovet səfirliyinə İrandakı prosesləri ciddi surətdə izləmək tapşırığı vermişdi. Müsəddiqlə Kaşani arasındakı ziddiyyətlərə qarışmamaq, Kaşaninin Müsəddiq əleyhinə SSRİ-nin dəstəyini istəməsi halında buna razı olmamaq tapşırılmışdı. Molotovun məktubunda ən önəmli məsələlərdən biri də, İran nefti ilə bağlı idi. O, burada yazırdı: "Əgər Müsəddiq və ya Kaşani Sovet İttifaqının İran neftini alması məsələsini ortaya atsa, cavabında bildirin ki, biz buna razıyıq. Lakin, neftin İran körfəzindən daşınmasındakı çətinlikləri nəzərə alaraq yaxşı olardı ki, İran Sovet İttifaqına satmaq üçün özü nefti Xəzər dənizində yerləşən limanlarına çatdırsın" [13].

1952-ci il oktyabr ayının 18-də Hendersonun Müsəddiqlə görüşü İran-Britaniya münasibətlərinin qorunub saxlanmasına həsr olundu. Səfirin səyləri Baş nazirin Britaniya ilə diplomatik əlaqələri kəsməsinin qarşısını ala bilmədi. Oktyabr ayının 22-də İranın xarici işlər naziri Hüseyn Fatemi mətbuat konfransında elan etdi ki, İran hökuməti Britaniya ilə əlaqələri kəsmək qərarına gəlmişdi. İranın Londondakı nümayəndəliyi Tehrana qayıtmaq üçün təlimatlandırılmışdı. İran hökumətinin bu addımı geniş xalq kütlələri tərəfindən dəstəkləndi.

Demək olar ki, İrandakı Britaniya casuslarının fəaliyyəti sona çatdırılmışdı. Trumenin də, Milli hökumətin zorakı yollarla devrilməsinə qarşı olması Müsəddiqi bir qədər rahatlandırmışdı. Britaniya hökuməti İran məsələsində ümidsizliyə yuvarlanmağın astanasındaykən onlar üçün yeni bir ümid işığı yandı. ABŞ-da yaxınlaşan prezident seçkilərində Trumenin namizədliyini irəli sürməyəcəyi qətiləşmişdi. Onun yerinə keçməsi real görünən respublikaçılar partiyasının nümayəndəsi Duayt Eyzenhauerin seçki kampaniyası zamanı səsləndirilən fikirlər Çörçili razı salmışdı. Trumenin hakimiyyəti dövründə Britaniya hökumətinin təzyiqlərinə baxmayaraq, ABŞ hökuməti Müsəddiqin zorla devrilməsi fikrinə heç vaxt dəstək vermədi.

**ƏDƏBİYYAT**

1. Counter Spy/ The Magazine for People who Need to Know. CIA-RDP88-01314R. September/October 1980. Vol.4. No 4.
2. Foreign Relations of USA (FRUS). The Ambassador in İran to the Department of State. Tehran, october 16, 1952. Vol.X.
3. FRUS. The Acting Secretary of State to the Embassy in İran. Washington, August 25, 1952. Vol.X.
4. FRUS. The Ambassador in İran (Henderson) to the Department of State. Tehran, August 30, 1952. Vol.X.
5. FRUS. The Ambassador in İran (Henderson) to the Department of State. Tehran, October 7, 1952. Vol.X.
6. FRUS.The Acting Secretary of State to the Embassy in the UK. Washington, August 18, 1952. Vol.X.
7. FRUS.The Ambassador in İran (Henderson) to the Department of State. Tehran. July 28, 1952. Vol.X.
8. FRUS.The British Embassy to the Department of State. Washington, August 9, 1952.Vol.X.
9. FRUS.The British Embassy to the Department of State. Washington. August 9, 1952. Vol.X.
10. Minute by Zaehner. 23 iyun, 1952. FO 248, 1531
11. National Archive Records Adminstration/ The Central İnteliegence Agency on the Regulatory Detailed Plan (CİA- RDP) 80R01443.
12. RQASPİ. f.82, s.2, i.1043, v.353
13. RQASPİ. f.82, s.2, i.1219, v.126-127
14. RQASPİ. f.82, s.2, i.1043, v.273
15. Sepehr Zabih. The Mossaddegh era: Roots of the Revolution.Chicago: Lake View Press, 1982. 182 p.

## ИЗМЕНЕНИЯ, ПРОИСХОДЯЩИЕ ВО ВНУТРЕННЕМ И ВНЕШНЕМ ПОЛИТИЧЕСКОМ КУРСЕ ИРАНА В ПЕРИОД ВТОРОГО ПРАВИТЕЛЬСТВА МУХАММЕД МУСАДДИГА

**Н.А.РЗАЕВ**

**РЕЗЮМЕ**

Мухаммед Мусаддиг, создавший организацию Национального Фронта в 1949 году, систематически начал бороться за национализации иранской нефти. Его борьба вскоре принесли свои плоды. Так, в 1951 году был назначен на пост премьер-министра Ирана. За короткое время, собравший вокруг себя большое количество сторонников, Мусаддиг большим авторитетом в 1952 году вновь создал возможность для назначения на эту должность. Однако, недовольство, происходящим из-за отставки в 1952 году между Мухаммед Рза шахом Ирана заставил народа подняться на ноги. Давление с требованиями народа возвращения вновь к власти Мусаддига, сопровождалось серьезными событиями в истории Ирана.

**Ключевые слова:** национализация, англо-иранская нефтяная компания, Захеди, шах Реза, Гендерсон, Мусаддиг

**THE CHANGES IN DOMESTIC AND FOREIGN POLICY OF IRAN DURING MOHAMMED MOSADDEG’S SECOND GOVERNMENT**

**N.A.RZAYEV**

**SUMMARY**

Mohammed Mosaddeg who created the organization of the National Front in 1949, systematically started fighting for nationalization of the Iranian oil. His fight soon bore fruit. So, in 1951 he was appointed to the post of the prime minister of Iran. Having gathered a large number of supporters in a short time, Mosaddeg was appointed to this post again in 1952. However, his resignation in 1952 after the disagreement with Mohammed Rza shah led the people to rise.

Mosadfing’s return to power with the pressure and demand of the people was accompanied by serious events in the history of Iran

**Key words:** Nationalization, Anglo-Iranian Oil Company, Zahedi, Shah Reza, Henderson Mosaddeg